# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırır və ən xoş arzularımı bildirirəm.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə Azərbaycan arasında əlaqələri, eləcə də Azərbaycanın təşkilata üzvlüyü məsələsində Sizinlə əməkdaşlığı daha da inkişaf etdirməyi səbirsizliklə gözləyirəm. Azərbaycan ÜTT-yə üzvlük prosesini yenidən aktivləşdirmək üçün 2023-cü ildə danışıqlar masasına qayıdıb. Qalan məsələlərin həllində Sizin liderliyiniz çox vacib rol oynayacaq və bu məsələləri 2-3 il ərzində həll etmək olar.

Azərbaycanın Avropa və Asiyanı birləşdirən strateji coğrafi mövqeyini nəzərə alsaq, onun ÜTT-yə üzv olması təşkilat və dünya iqtisadiyyatı üçün böyük maraq kəsb edir.

Azərbaycanın təşkilata üzv olması həm də ölkənin öz iqtisadiyyatını daha da şaxələndirməsinə, Qafqazda və Mərkəzi Asiyada regional tərəfdaşlar arasında ticarət əlaqələrinin daha çox uyğunlaşmasına töhfə verəcək.

BMT-nin İqlim Dəyişmələri üzrə Konfransı - COP29-a evsahibliyi edən Azərbaycan 2024-cü ildə çoxtərəfli əməkdaşlıqda aparıcı rol oynayacaq. Azərbaycanla əməkdaşlıq etməyi və ticarətin qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılmasındakı roluna görə xüsusi tematik gün kimi müəyyən edildiyi COP28-də əldə olunan nailiyyətləri daha da inkişaf etdirməyi səbirsizliklə gözləyirəm. Ümid edirəm ki, Azərbaycan COP29-da Ticarət Günü təşkil edəcək və ÜTT Katibliyi bunun uğurlu keçirilməsi üçün Sizə dəstək verməyə hazırdır.

ÜTT çoxtərəfli ticarət sistemində daha dərin inteqrasiyanı həyata keçirdiyi üçün onun beynəlxalq əməkdaşlığı möhkəmləndirməsinə və Azərbaycanı dəstəkləməsinə sadiq qaldığına əmin ola bilərsiniz.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Nqozi Okonco-İVEALA,***
***Ümumdünya Ticarət Təşkilatının baş direktoru***

Azərbaycan.- 2024.- 16 mart, № 59.- S.2.